**Yusteyn Qorder**

# SOFİNİN DÜNYASI

Tərcüməçi:

Nərmin Kamal

QANUN NƏŞRİYYATI

Jostein Gaarder

# SOFIES VERDEN

Sofi adlı 15 yaşlı qız naməlum adamdan sirli məktublar alır. Bu məktublar hər insanı maraqlandıran suallar haqqındadır: Dünya necə yaranıb? Ölümdən sonra həyat varmı? Biz necə yaşamalıyıq? Sofi tarix boyu ardıcıl surətdə filosofların bu suallara verdiyi cavablarla tanış olur. Nəhayət, günlərin birində Sofi həmin məktubları yazan filosofla görüşür...

Norveç yazıçısı Yusteyn Qorderin (Jostein Gaarder) bütün dünyada məşhur olan "Sofinin dünyası" kitabı fəlsəfə tarixi haqda romandır. Fəlsəfəni əyləncəli və sadə dillə izah etdiyindən, həm məktəb yaşlı uşaqlar, həm də böyüklər üçün dəyərli kitabdır.

*Üç minillik keçmişinin haqq-hesabını aparmayan gün-güzəran adamıdır!*

– GÖTE

# MÜNDƏRİCAT


CƏNNƏT .......... 9
SİLİNDR ŞLYAPA .......... 17
MİFLƏR .......... 28
TƏBİƏT FİLOSOFLARI .......... 35
DEMOKRİT .......... 47
TALE .......... 53
SOKRAT .......... 61
AFİNA .......... 76
PLATON .......... 82
PLATONUN AKADEMİYASI .......... 85
MAYORUN EVİ .......... 97
ARİSTOTEL .......... 106
ELLİNİZM .......... 122
AÇIQCALAR .......... 139
İKİ MƏDƏNİYYƏT .......... 148
ORTA ƏSRLƏR .......... 162
RENESSANS .......... 185
BAROKKO .......... 212
DEKART .......... 228
SPİNOZA .......... 241
LOKK .......... 250

YUM .......... 260
BERKLİ .......... 275
BJERKLİ .......... 280
MAARİFÇİLİK .......... 295
KANT .......... 314
ROMANTİZM .......... 334
HEGEL .......... 352
KYERKEQARD .......... 364
MARKS .......... 377
DARVİN .......... 395
FREYD .......... 418
BİZİM DÖVRÜMÜZ .......... 437
BAĞDA ŞƏNLİK .......... 461
KONTR-XAL .......... 475
BÖYÜK PARTLAYIŞ .......... 494

# CƏNNƏT

*...nə varsa, yoxdan var olub...*

Sofi Amundsen məktəbdən evə qayıdırdı. Yolun yarısını Coannayla gəzə-gəzə gəlmişdilər. Söhbət robotlardan düşmüşdü. Coanna deyirdi ki, insan beyni təkmil bir kompüter kimidir. Sofi üzdə razılaşsa da, ürəyində buna inana bilmirdi. "Doğrudanmı insan beyninin, lap mükəmməl cihaz olsa da, hansısa qurğudan fərqi yoxdur?!"

Supermarketə çatanda ayrıldılar. Sofi uzaqda – ucqar bir məhəllənin qurtaracağında yaşadığından, Coannadan ikiqat artıq yol getməliydi. Onlardan o tərəfə ev yoxdu, meşəlikdi, baxanda elə bilərdin ki, Sofigilin həyəti dünyanın axır ucundadı.

Sofi döngədən Yoncalı küçəyə buruldu. Yolun sonu sərt aşırım idi, oraya Kapitan aşırımı deyirdilər. Adi günlərdə də çox az adamın yolu düşən bu aşırımdan həftəsonları heç keçən olmurdu.

Mayın əvvəlləri idi. Bağların çoxunda meyvə ağacları topa-topa sarı çiçəklərə bürünmüşdü. Budaqlarda açıq yaşıl yarpaqlar vardı. "Qəribə işdi: hər il bu vaxt yer-göy çiçək açır!.. Axı necə olur ki, hava isinəndə, qarın son izləri silinib gedəndə ölü torpaqdan bu qədər bitki baş qaldırır, hər yer yaşıllaşır?!"

Həyətlərinə çatıb qapını açanda poçt qutusuna baxdı. Sofi adətən bu qutudan bir neçə gərəksiz məktub, anasına çatacaq iki-üç iri zərf götürür, dərslərini hazırlamaq üçün öz otağına keçməzdən əvvəl bu kağız qalağını mətbəxdəki masanın üstünə qoyurdu.

Bəzən bu qutuda, bankdan atasına göndərilmiş məktublar da olurdu. Sofinin atası başqaları kimi deyildi. O, böyük bir neft tankerinin kapitanıydı, ilin çox hissəsini evdən uzaqlarda keçirirdi. Bəzən evə gəlib bir neçə həftə onların yanında qalır, onda da həyəti sahmana salmağa, bir az da gözəlləşdirməyə çalışaraq, hər tərəfə əl gəzdirirdi. Dənizə çıxanda isə, artıq əlçatmaz olurdu...

Bu dəfə qutuda cəmi bir məktub vardı! Özü də Sofiyə gəlmişdi! Ağ zərfin üzərində bu sözlər yazılmışdı: "Sofi Amundsen, Böyük mülklər küçəsi, 3". Vəssalam. Kimin göndərdiyi yazılmamışdı. Heç üstündə möhür də yoxdu.

Sofi həyətə girib darvazanı bağlayan kimi zərfi açdı. İçindən elə zərfin özü boyda bir kağız çıxdı. Əllə yazılmış ikicə kəlmə və ardınca böyük bir sual işarəsi: "Sən kimsən?"

Zərfin üstünə bir də baxdı. Doğrudan da, Sofiyə gəlmişdi. "Bunu qutuya kim atmış olar, görəsən?!"

Sofi hövlnak özünü hasarları qırmızı boyanmış evlərinə çatdırdı. Bu dəmdə Şerekan, adəti üzrə, kolların arasından çıxıb astanaya tullandı, Sofi öz ardınca qapını örtməyə macal tapmamış, pişik xəlvətcə sivişib içəri keçdi.

Sofinin anası hər dəfə əhval-ruhiyyəsi korlananda, bu yaşadıqları evi "Menaceriya" adlandırırdı. "Menaceriya" – vəhşi və qəribə heyvanlar kolleksiyası deməkdir. Hə, Sofinin belə bir kolleksiyası vardı, bu heyvanlarla özünü xoşbəxt hiss edirdi. Bu kolleksiyanı yığmağa üç qızıl balıqdan başlamışdı: Qızılca, Su sonası və Qara Cek. Sonra Smit və Smul adlı iki tutuquşunu, onların ardınca Qovinda adlı tısbağanı, lap axırda da Şerekanı – bu sevimli pişiyi almışdılar. Sofinin anası işdən axşamüstü, saat 4-də, 5-də gəlirdi, atası il uzunu gəmiylə dünyanı dolaşırdı. Təkcə bu heyvanlar Sofiyə yoldaşlıq edir, ata-anası olmayanda onu darıxmağa qoymurdular.

Sofi çantasını döşəməyə atıb, Şerekanın qabağına bir qab yemək qoydu. Sonra da, əlində həmin müəmmalı məktub, mətbəxdəki kətildə oturdu.

"Sən kimsən?"